MUSİQİ SƏNƏTİ

**UOT: 78.**

**Simarə İmanova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: maga.rustamli@mail.ru**

# AZƏRBAYCAN VƏ TÜRK XALQ MAHNILARININ ƏSAS MELODİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN QARŞILIQLI ƏLAQƏLƏRİ

**Xülasə**: Məqalədə türk və Azərbaycan musiqisinin oxşar məqamları araşdırılır, müəyyən məqamların oxşarlılığı öz təsdiqini tapır.

**Açar sözlər:** Azərbaycan və türk xalq musiqisi, rast, şur, segah, çahargah.

Azərbaycanın dünya mədəni məkanına daxil olduğu bir dövrdə mədəniyyətlərin qarşılıqlı əlaqələri kompleksinin öyrənilməsi məsələsi xüsusilə aktual əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, son on il ərzində bu sahədə görülən müəyyən işlər xalq musiqisi strukturunda özünəməxsus türk elementlərinin aşkar edilməsinə də imkan verir. Bu baxımdan problemin janr yanaşması nöqteyi-nəzərindən öyrənilməsi özünü əsaslı surətdə doğrultmuşdur. Belə yanaşmanın məqsədəuyğunluğu, etibarlılığı yalnız bir çox janr parametrlərinin üst-üstə düşməsinin təsdiqlənməsi ilə müəyyənləşmir. Burada təhlil edilən materialın bərabər şəkildə paylanmasını qeyd etmək lazımdır ki, bu da təhlilin dəqiqliyini və sanballılığını artırır. Belə ki, türk xalqlarının musiqi mədəniyyətində lirik janr qohum melodik mədəniyyətlərin təmsilçisi kimi çıxış edir. Bu, musiqili başlanğıcla qeyri-musiqili başlanğıc arasında sıx qarşılıqlı əlaqədə öz əksini xüsusi parlaqlıqla tapır. Biz janr-məişət əsasını, sosial şərtlənməni və digər şərtləri nəzərdə tuturuq.

Tədqiqatda dəfələrlə qeyd olunduğu kimi, Azərbaycanın musiqi mədəniyyətinin türk mədəniyyəti kontekstində öyrənilməsi bir neçə tədqiqat mövqeyi ilə bağlıdır. Birincisi, Azərbaycan xalq musiqisinin xüsusiyyətləri türk dünyasının musiqi fonunda özünü daha parlaq şəkildə nümayiş etdirir. İkincisi, müqayisəli təhlil türk dünyasının xalq musiqisinin qarşılıqlı əlaqələrinin bir çox vacib xüsusiyyətlərini müəyyən etməyə imkan verir.

Tədqiqat zamanı biz lirik mahnılar üzrə nəşr edilmiş materialdan istifadə etmişik. Bu material bizə tədqiqatın əsas ideyasını təsdiq etməyə imkan vermişdir. Həmin ideya ondan ibarətdir ki, xalq musiqisinin müqayisəli şəkildə öyrənilməsi Azərbaycan və türk lirik mahnısının qanunauyğunluqlarının və özünəməxsus xüsusiyyətlərinin aşkarlanması fonunda icra olunsun.

Tədqiqatda Azərbaycan və türk lirik mahnısı bütöv bir mədəni hadisə kimi götürülərək onların müqayisəli təhlili aparılır. Hər şeydən əvvəl janrın səviyyəsinə diqqət yetirilir və təhlil vahid prosesin hər iki tərəfini əks etdirir. Qeyd edək ki, Azərbaycan və türk lirik mahnısının uyğunluğu bədii əlaqələrin real gerçəkliyini əks etdirir. Digər tərəfdən, hər hansı müqayisəli tədqiqat müqayisə olunan obyektlərin xarakterliyini, milli özünəməxsusluğunu ön plana çəkir.

Belə bir mühüm məsələni vurğulamaq lazımdır ki, Azərbaycanın musiqi sənəti-xalq, şifahi ənənəli professional musiqisi öz mənbələrinə görə o qədər dərin və öz ifadəsinə görə o qədər zəngindir ki, o öz inkişafı prosesində türk mahnısının yalnız genetik uyğun təzahürlərini mənimsəmişdir. Əlavə edək ki, xalqlarımızın etnik eyniliyi türk eposu ilə də bağlıdır. Məhz buna görə də, Azərbaycan və türk xalqlarının lirik mahnıları arasında üzvi yaxınlıq qanunauyğun səciyyə daşıyır.

Apardığımız təhlil göstərdi ki, Azərbaycan və türk lirik mahnıları bir çox uyğun cəhətlərə malikdir. Tarixi inkişaf prosesində formalaşan musiqili lirikanın xüsusiyyətləri Azərbaycan lirik mahnısında özünü parlaq şəkildə göstərə bilmişdir. Odur ki, Azərbaycan xalqının mənəvi irsinin zəngin xəzinəsinə daxil olan Azərbaycan lirik mahnısı ən müxtəlif aspektlər baxımından tədqiq olunmasını tələb edir.

Bu məqsədlə biz Azərbaycan və türk lirik mahnısının müqayisəli təhlilinə müraciət etdik, çünki bu aspekt janrın əhəmiyyətini, dəyərini və milli özünəməxsusluğunu daha dərindən açmağa imkan verir.

Qeyd edək ki, iki xalqın lirik mahnılarının strukturunda kifayət qədər uyğunluqlar müşahidə etmək mümkündür. Hər şeydən əvvəl, bu lirik mahnıların bir çox nümunələrinin sual-cavablı, yəni kupletli olması faktını göstərək. Həm Azərbaycan, həm də türk musiqisində belə nümunələrin strukturu daxilində musiqi quruluşca “ekspozisiya”ya, yəni başlanğıc zonaya, yuxarı melodik xətlə inkişaf zonasına və nəticə hissəsinə bölünür. Beləliklə, biz burada tonikalı, ilkin kompleksi əvvəldə, daha sonra isə materialın açılmasını (həm ilkin məqam-into-

nasiya materialı, həm də yeni intonasiya elementlərinin cəlb olunması ilə) müqayisə edə bilərik. Bir qayda olaraq, açılış artım prinsipinə əsaslanır, bu zaman sonra əmələ gələn hər bir inkişaf həlqəsi əvvəl gələn həlqədə melodik dayaq əldə edir. İstinadların kvarta-kvinta əlaqəsi, axıcı melodik hərəkətin üstünlüyü, melodik funksionallıq, intonasiya etmənin və məqam təşkilinin xüsusiyyətləri dayaq funksiyasını yerinə yetirir.

Azərbaycan və türk musiqisində lirik mahnıların başlanğıc melodik özəyi bir-birinə uyğundur. Tamın dramaturji inkişaf prinsipi də oxşardır. İlkin tematik frazada mahnının gələcək məqam-intonasiya quruluşu özünü yığcam formada nümayiş etdirir. Məhz bu səbəbdən ilkin frazalar öz melodik məzmununa görə çox ifadəli və dəqiqdirlər. Beləliklə, demək olar ki, həm Azərbaycan, həm də türk musiqisində eyni tipli struktur mövcuddur, yəni mövzunun özəyi gələcək inkişafın potensial imkanlarını özündə daşıyır.

Materialın ilkin ifadəsindən sonra o, bir qayda olaraq, əsas səs sırasının yuxarı hissəsinə irəliləməyə başlayır. Onun müəyyən inkişafından sonra tonikaya doğru enmə pilləsi sekvent hərəkət vasitəsilə yerinə yetirilir. Qeyd edək ki, bu növ dramaturji sxem – Azərbaycan və türk lirik musiqisinin tipoloji xassəsidir. Belə inkişaf prinsipi Azərbaycan musiqişünaslığında çox dəqiq araşdırılmışdır.

Azərbaycan və türk musiqisinin əsasında strukturun iki xassəsi durur – formulalıq və melodik ornamentallıq. Melodik strukturun bu iki xassəsi Azərbaycan və türk musiqisində eyni qaydada təzahür edir. Məsələn, tematik əhəmiyyətli formula özünü adətən formanın əvvəlində və sonunda göstərir. Forma boyu isə melodik struktur ornamentləşir ki, bu da tama böyük dinamika verir. Melodik strukturun ornamentliyi həm Azərbaycan, həm də türk musiqisində çoxsaylı predyomlara, yubanmalara, köməkçi səslərə əsaslanır. Tama bir çox xromatik və alterasiyalı səslər ifadəlilik verir. Onların trellərdə, repitisiyalarda saysız-hesabsız incə nüansları materialı zənginləşdirir və ona qeyri-adi gözəllik bəxş edir.

Bu prosesdə gəzişmənin böyük rolu qeyd edilməlidir. Onu da əlavə etmək lazımdır ki, gəzişmə təkcə intonasiya etmənin melodik tipi deyil, həm də melodik vahid funksiyasını yerinə yetirir. Bu, onunla izah olunur ki, Azərbaycan musiqi sistemi melodik funksionallığa əsaslanır. Ona görə də, səs dayağının gəzişməsi onu məqam-funkstonal dayağa çevirir.

Azərbaycan və türk lirik mahnısını qarşılaşdırdıqda, tipologiya melodik inkişaf səviyyəsində çıxış edir. Nümunə olaraq aşağıya doğru hərəkətin xüsusiyyətlərini göstərək. Onlar eynidir:

1. Zirvə-mənbənin funksiyaları;
2. Melodik enmənin məqam özünəməxsusluğunun kvarta-kvinta intonasiyalarına əsaslanması;
3. Aşağı dayaq səsin tamamlayıcı kimi intonasiya məğzi;
4. Yuxarı və aşağı dayağın funksional əlaqələrinin üst-üstə düşməsi, əksər hallarda bunun kvarta-kvinta, həmçinin sekstalı münasibət səciyyəsi daşınması.

Əlavə etmək zəruridir ki, bir qayda olaraq, zirvə-mənbə sıçrayışla götürülür, bu zaman sıçrayışın intervalı variasiya edilir. Kulminasiyanın əldə olunma yolları da eynidir. Azərbaycan və türk musiqisində melodik hərəkət üçün yüksəlmə və enmənin bərabər uzunluğu, fırlanan hərəkət, pilləli hərəkət xarakterdir.

Müqayisəli təhlil sübut edir ki, türk musiqi mədəniyyətində lirik janrlar təkcə janr mənsubiyyətinə görə deyil, həm də musiqi dilinin və formasının bir çox parametrlərinə görə eynidir. Optimal variantda göstərilən əlaqələr Azərbaycan və türk mahnıları səviyyəsində müşahidə olunur.

Hər şeydən əvvəl qeyd edək ki, Azərbaycan və türk lirik mahnılarının janr xüsusiyyətləri üst-üstə düşür. Bununla belə, məlum olduğu kimi, janr göstəriciləri musiqi əsərlərinin bir çox xarakter xüsusiyyətlərini təyin edir.

Əvvəlcə tematik özünəməxsusluqda olan əhəmiyyətli eynilikləri göstərək. Burada ilkin impulsun intonasiya-ritmik formulası bütün mahnı mətni boyunca saxlanılır. Azərbaycan və türk mahnılarının tematizminə qısa motiv özəklərinin təkrarlığı da xasdır. Mahnıların əsasında duran qısa motiv çox vaxt kiçik variant yönəlmələr vasitəsilə inkişaf edir. Azərbaycan və türk mahnılarını birləşdirən ümumi keyfiyyətlər sırasında onların quruluşunun həcmcə böyük olmaması, lakin, bununla belə, tematik inkişafının fəallığı göstərilə bilər.

Çox vaxt tematik inkişafın müxtəlif yolları üst-üstə düşür. Bir qayda olaraq, lirik mahnıların mövzuları həm Azərbaycan, həm də türk xalq musiqisində çox zəngindir. Onların məqam-intonasiya, ritmik, strukturlarda ifadə olunan potensial xüsusiyyətləri fəaldır və melodiyaların sonrakı inkişafına stimul verir. Mövzuya, mövzunun özəyinə məqam-dramaturji inkişafın funksiyasından strukturadək bütün incə məqamlar daxildir.

Təkrarlıq prinsipi də birləşdirici rolunda çıxış edir. Bu özünü həm qısa

tematik folmulaların təkrarlanmasında, həm də frazaların, cümlələrin, müəyyən struktur komplekslərin təkrarlığı səviyyəsində göstərir.

Təkrarlıq tematik strukturun və onun inkişafının vacib tərkib hissəsidir. Azərbaycan və türk xalq musiqisinin təhlili sübut edir ki, təkrarlıq törədici strukturdur. O, həm məqamın, həm də formanın əsasını təşkil edir. Belə ki, ifadə vasitələri musiqi vasitələrinin uzun müddət ərzində seçimi nəticəsində formalaşmışdır. Məhz sabit təkrarlıq musiqi dilinin və formasının ən xarakter tərəflərini təyin edir.

Variantlıq Azərbaycan və türk musiqisinin inkişafında böyük rol oynayır. Bu prinsip, demək olar ki, musiqi folklorunun vacib xassəsidir. Onun universal cizgiləri motiv işləmənin xüsusiyyətləri ilə bağlıdır. Variantlıq tematik planı təşkil edir, forma yaranmasında fəal iştirak edir. İntonasiya-ritmik seqmentlərin variantlığı isə musiqi mətninin fəallığına yol açır.

Vahid tematik quruluşlu mahnıları xüsusi qeyd etməyə ehtiyac vardır. Azərbaycan və türk xalq mahnısında melodik açılışın bütövlüyü, fasiləsizliyi oxşar qanunauyğunluqlara əsaslanır. Belə ki, variant proseslər həm tematik vahidin, həm də formanın struktur hissələrinin yaranmasını müəyyənləşdirir.

Mövzudan ayrı məqam-intonasiya, meloritmik elementlərin bölünməsi bir sıra funksiyalara malikdir:

1. İnkişaf etməsi;
2. Dramaturji düzümün irəliləməsinin təməli.

Burada Azərbaycan və türk lirik mahnısında sekvensiyaların və onların oxşar göstəricilərinin xüsusi əlamətlərini göstərmək lazımdır. Bir qayda olaraq, sekvensiyalar Azərbaycan və türk lirik mahnılarının inkişafında dinamiklik yaradır. Bu, onların əsas ümumi əlaməti kimi qəbul edilir. Məqam strukturların eyniliyi funksional məzmunun eyniliyini təyin edir. Məsələn, rast məqamının məqam-intonasiya sxeminə əsaslanan lirik mahnılarda tonikaya doğru yüksələn kvarta intonasiyası, aşağı enən böyük tersiya intonasiyası, həmçinin tonika ətrafında sekundalı gəzişmə böyük əhəmiyyətə malikdir. Şur məqamındakı melodiyalar da öz funksional məzmununa görə eynidir. Burada tonikaya doğru yuxarıdan enən kvarta intonasiyası, tonikanın alt natural aparıcı tonla oxunması, habelə üst sekundanın tonikaya doğru xarakter "friqik" intonasiyası nəzərdə tutulur.

Segah məqamında olan melodiyalar Azərbaycan xalq musiqisində daha çox yayılmışdır. Lakin buna türk musiqisində də rast gəlinir. Burada da funksi-

onal əhəmiyyətli yüksələn tersiya və enən sekunda intonasiyalarını qeyd etmək lazımdır.

Çox vaxt rast məqamında olan melodiyalar kvinta səsindən başlayır. Tematizmin formalaşmasında üst tersiyalı intonasiya da xüsusi rol oynayır. Onun “parlaq” boyası məqamı tez müəyyən edir və bütün tama təkrarsızlıq verir. Bütün bunlar həm Azərbaycan, həm də türk musiqi ənənəsinə xasdır.

Azərbaycan və türk lirik musiqisində formul məqam-intonasiyaların istifadə olunmasında analogiyaları nəzərdən keçirək.

Məsələn, üst kvarta intonasiyası həmişə dəqiq funksional məzmunu ilə seçilir. Bu, həmişə tonikaya doğru aşağı istiqamətlənən kvartadır. Lakin çox vaxt konkret mahnı nümunələri tonikadan kvartaya sıçrayışla açılır. Bu halda mahnı birdən-birə hansısa emosional yüksəklikdən başlayır. Belə parlaq emosional boya istər Azərbaycan, istərsə də türk lirik musiqisinə xasdır.

Azərbaycan və türk lirik mahnılarının qarşılaşdırmasını 3 qrupa bölmək olar:

1. Periodluq prinsipinə əsaslanan mahnılar. Belə mahnıların əsasında dəfələrlə təkrarlanan intonasiya-ritmik formul durur;
2. Sual-cavab strukturlu mahnılar;
3. Tematizmi və onun inkişafını, qovuşaq, vahid tamı əks etdirən mahnılar.

Fikirlərimizi yekunlaşdıraraq Azərbaycan və türk musiqisində lirik janrın eyniliyini 3 səviyyədə göstərmək olar:

1. Milli özünəməxsusluğun cizgilərinin aşkarlanması;
2. Lirik janrın parametrləri xalq musiqisinin universal cəhətlərinin təzahür forması kimi;
3. Hər bir konkret nümunənin fərdi cizgiləri.

Eyniliyin göstərilən səviyyələri Azərbaycan və türk lirik mahnılarının müqayisəli təhlilin əsasını təşkil edir.

Variantlığın tətbiqində prinsipial oxşarlıqlar motiv inkişafının eyniliyini doğurur. Lirik janrların mətni çox vaxt həm ritmik, həm də melodik cəhətdən oxşar olur. Bundan əlavə, tonika kompleksi daxilində səslərin eyni mikroyerdəyişməsini də müşahidə etmək olar. Bu halda onun məğzi dəyişmir.

Məqalədə irəli sürülən paralellər, oxşarlıqlar və analogiyalar qanunauyğun xarakter daşıyır, türk musiqi sisteminin xüsusiyyətlərini və özünəməxsusluğunu əks etdirir və demək olar ki, genetik xarakterə malikdir. Təzahürün sabitliyi fik-

rimizin təsdiqinə xidmət edir ki, bu da tarixi inkişaf prosesində qanunauyğunluğa çevrilir.

Müasir Azərbaycan etnomusiqişünaslığının vacib vəzifələrindən biri türk musiqi sisteminin genezisinin və təkamülünün öyrənilməsidir. Bir sıra tədqiqatlar nəticəsində türk musiqi mədəniyyətinin bir çox ümumi və lokal xüsusiyyətləri müəyyənləşmişdir. Bunların arasında obraz məzmununu və janr təsnifatı, məqam-intonasiya və melodik qanunauyğunluqları, ritm və forma yaranmasını qeyd etmək olar. Lokal müxtəlifliyin dərk olunması nəticəsində Azərbaycan və türk xalq lirik musiqisinin ümumi əsaslarının tədqiq etmək mümkündür.

Azərbaycan mədəniyyəti tarixinin real inkişaf treyektoriyası türk dünyası ilə sıx bağlıdır. Azərbaycanlılara etnogenetik, mədəni parametrlər etibarilə ən yaxın olan xalq türk xalqıdır. Ona görə də, biz məhz türk xalqının musiqi mədəniyyətinə müraciət etməyi daha məqsədəuyğun hesab edirik. Azərbaycan və türk xalqının lirik mahnıların ümumi nəzəri universallığın təhlili digər türk xalqlarının musiqisinin müqayisəli təhlilinə yol açır.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). B.:2002, 454 s.
2. Abdullayeva S.A. Azərbaycan folklorunda xalq çalğı alətləri. B.: Adiloğlu,2007, 216 s.
3. Abdullazadə G.A. Qədim və Orta əsrlərin musiqi mədəniyyəti. Bakı, Qartal, 1996, 288 s.
4. Abdullayeva K. Azərbaycan folklorunda ailə-məişət mərasimləri və onların poetik mətnləri. Azərbaycan şifahi xalq ədəbiyyatında dair tədqiqlər. Bakı, Elm, 1987, s. 80-139
5. Azərbaycan dastanları. Beş cilddə. – Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1961-1972, I-V cildlər.
6. Azərbaycan xalq musiqisi. Bakı, Elm, 1981.
7. Azərbaycan folkloru antologiyası. I kitab. (Toplayanı və tərtib edəni Ə. Axundov). Bakı, Azərb. EA nəşri, 289 s.
8.Azərbaycan folkloru antologiyası. II kitab. Bakı, Azərb. EA nəşri, 1968,259s.

Симара Иманова

# ОСНОВНЫЕ МЕЛОДИЧЕСКИЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ И ТЮРКСКИХ НАРОДНЫХ ПЕСЕН И ИХ ВЗАИМОСВЯЗИ

**Резюме:** В статье рассматриваются основные идентичные моменты турецкой и азербайджанской музыки, аргументируется мысль о сходстве определенных ладовых комплексов.

**Ключевые слова**: азербайджанская и турецкая народная музыка, раст, шур, сегях, чаргях.

Simara Imanova

# THE PRINCIPAL MELODIC FEATURES OF AZERBAIJANI AND TURKISH NATIONAL SONGS AND THEIR INTERRALATIONS

**Summary**: This article based on the analysis of the sources of the Turkish folk music, the main tonal structures of the Turkish folk music are being exposed. In this chapter, the author argues the idea of the similarity of the certain tonal systems of the Turkish and Azerbaijani folk music.

**Key words**: Azerbaijani and Turkish folk music, rast, shur, segakh, chargakh

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**